# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir






## Quba

Quba sakinləri də türk qardaşlarımıza yardım kampaniyasında fəallıq göstərirlər. Hətta ucqar dağ kəndlərindən axın-axın insan yardım etmək üçün ayrılmış məntəqəyə gəlir, türk bacı-qardaşlarımızın dərdlərinə şərik olduqlarını bildirirlər. Akif Bəşirov gətirdiyi yardımı təhvil verdikdən sonra ürəkyanğısı ilə dedi ki, biz qardaşıq: "Qardaş köməyini qardaşından əsirgəməməlidir. Əminəm ki, Türkiyə bu çətin sınaqdan da üzüağ çıxacaq".

Quba şəhərindəki Azərbaycan-Türkiyə Qardaşlıq Parkına gələn insanların da ardı-arası kəsilmir. Burada yardım məntəqəsi açılıb. Zərərçəkmiş şəxslərin ehtiyaclarının qarşılanması məqsədilə qubalıların gətirdikləri generatorlar, çadır, yataq ləvazimatları, zəruri gigiyenik vasitələr, elektrik qızdırıcıları və başqa avadanlıqlar bu məntəqədə toplanır. Sonra isə toplanan yardımlar Türkiyəyə yola salınmaq üçün xüsusi ayrılmış nəqliyyat vasitələrinə yüklənir.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*




## Mingəçevir

Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyası davam edir. Mingəçevir şəhəri də bu kampaniyaya can-başla qoşulub. Şəhərin müxtəlif ərazilərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılıb. Hadisə baş verən ilk gündən mingəçevirlilər bu məntəqələrə axın edirlər. Onların gətirdikləri müxtəlif növ zəruri yardımlar çeşidləndikdən sonra qablaşdırılaraq təyin olunmuş ünvanlara göndərilir.

Bundan əlavə, Mingəçevir Şəhər İcra Hakimiyyəti tərəfindən 5 konteyner ev sifariş olunaraq hazırlanmışdır. İki gün öncə konteynerlər zəlzələdən zərərçəkmiş bölgələrə yola salınmışdır.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Tərtər

Türkiyədə baş vermiş zəlzələ bütün Azərbaycan xalqı kimi, tərtərliləri də ürəkdən sarsıtmışdır. Hər birimiz bu ağrı-acını ürəyimizdən keçirməklə yanaşı, həm də özümüzü toplayaraq qardaş xalqa əlimizdən gələn köməyi göstərməyə çalışırıq.

Şəhərin Ədalət Paşayev küçəsində yaradılmış yardımtoplama məntəqəsinə hər gün yüzlərlə rayon sakini gəlir. Onlar zəlzələ bölgəsinə lazım olan əşyaları, ərzaq məhsullarını qardaş ölkəyə göndərmək üçün məntəqəyə təhvil verirlər.

Məktəbimizin müəllim və şagird kollektivi də bu işdə yaxından iştirak edirlər. Bu günlər tərtərlilərin topladığı yardım Gəncə şəhərinə yola salındı. Bu yardımla bərabər, biz qardaş ölkənin vətəndaşlarına öz sevgimizi, dualarımızı göndərir, onlara səbir və dözüm arzulayırıq.

Yardım kampaniyası davam edir.

*Ziyafət RÜSTƏMOVA,*
*Tərtər şəhər 1 saylı tam orta məktəbin direktor müavini*

## Ağcabədi

Biz insanlığa tapınan, rəhmli, dostcanlı xalqıq. Tariximizi vərəqlədikcə görürük ki, həmişə ədalətin, insana hörmət və qayğıkeşliyin tərəfdarı olmuşuq.

Türkiyədə baş verən zəlzələ dünyamızın bütün tərəqqipərvər insanlarına təsir etdi. Azərbaycan xalqı da qardaş ölkədəki bu hadisəni böyük ürəkağrısı, can yanğısı ilə qarşıladı. Zəlzələnin nəticələri nə qədər sarsıdıcı, nə qədər dəhşətli olsa da, insanlığın ölmədiyini, uşaqdan-böyüyə hamının təlaş içində yardım kampaniyasına qoşulduğunu görüncə isə dəhşətli kədərin içərisində yaralara su səpilir.

Ağcabədililər də bu dar gündə köməyə çatmağa çalışdılar. Qısa vaxtda xeyli sayda elektrik qızdırıcıları, generatorlar, qatlanan çarpayılar, isti geyimlər toplandı. Gənclər üçün Təhsil Mərkəzinin Qarabağ Regional Ofisi və YAP Ağcabədi Rayon Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən yardım kampaniyasına qoşulanların sayı-hesabı olmadı. Onların arasında şəhid ailələri, qazilər, imkansız ailələrin nümayəndələri də var idi. Bəzən yardım gətirənlər arasında tanıdığımız elə adamlar olurdu ki, onların özlərinin yardıma ehtiyacı var idi. Amma onlar da kampaniyaya qoşulur, gətirdiklərinin qəbul olunmasını və qardaş ölkəyə çatdırılmasını təkidlə xahiş edirdilər. Bunu izlədikcə öz-özümə deyirəm ki, yaradan mərhəmət hissini sizlərdən almasın. Gələcək nəsillər sizlərdən nümunə götürsünlər.

Dünyanın harasında yaşamasından, milliyyətindən, irqindən, dinindən asılı olmayaraq, bu böyük faciəyə laqeyd qalmayan, anaların fəryadına səs verməyi bacaranlar, həqiqətən, dəyərli insanlardır. Belə insanlarla bütün dünyamızı dəyişmək olar. Dünyanın heç yeri təbii fəlakətdən sığortalanmayıb. Belə vaxtda çətinliyə düşənlərə kömək etmək hamının borcudur. İnanırıq ki, bu yardımsevərlik, başqalarının acısını özününkü bilmək, bu ağrıları onlarla bərabər yaşamaq insanları daha sıx birləşdirəcək və yenilməz edəcəkdir. İnsanlar bir-birinin əlindən tutmağı bacarmasa, dünyamız çökə bilər.

Qardaş ölkədə təhsil alan tələbələr içərisində orta məktəbdə dərs dediyim şagirdlərim də var. Zəlzələ xəbərini alınca onlar üçün çox həyəcan keçirdim. Şükür ki, sağ-salamatdırlar. Təəssüf ki, Azərbaycandan olan digər 4 tələbəmizin həlak olması xəbərini aldıq. Günlərdir onlar haqqında xoş xəbər eşidəcəyimizə ümidli idik. Zəlzələdə həyatını itirən bacı - qardaşlarımızın hər birinə Allahdan rəhmət, onların yaxınlarına, doğmalarına səbir diləyirik.

*Zəhra İBRAHİMOVA,*
*Ağcabədi rayon sakini, Əməkdar müəllim*